# ZAQATALA: Abad yollar tərəqqiyə aparır

*Kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Xüsusilə bitkiçilikdə bu artım daha böyük olmuşdur – 10 faizdən çox. Bu da görülmüş işlərin nəticəsidir... Növbəti dövrdə kənd təsərrüfatı emalına biz böyük diqqət göstərməliyik. Çünki bizim kənd təsərrüfatı istehsalımız artır. Bizim ənənəvi sahələrimiz inkişaf edir və bərpa olunur və yeni kənd təsərrüfatı sahələri fəaliyyətə başlayır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



Yazılarımın birində qeyd etmişdim ki, Zaqatalada əsl həmsöhbət olan dostlarım, tanışlarım çoxdur. Maraqlıdır ki, bu adamlarla söhbət edəndə istənilən mövzunun nə üçün maraqlı olduğunu bilmirdim. Sadəcə, "gül kimi" ünsiyyət qurur, şirin söhbət edirik. Yerli ağsaqqallardan biri ilə görüşdə də bu məsələni yada salmış və ondan maraqlı bir fikir eşitmişdim: Zaqatalanın gül plantasiyaları da var, sırf özünəməxsus balı da. Ona görə də bu rayonun sakinləri ilə söhbətiniz "gül kimi" şirin olur.

Yaxşı məqam idi. Elə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə görüşümüzdə də məhz bu məqamdan bəhrələnmək istədim. Etiraf edim ki, həmin söhbət də elə "gül kimi" oldu. Mübariz müəllim qeyd etdi ki, Prezident İlham Əliyev həm 2019-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş müşavirədə, həm də regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramının ilk ilinin yekunlarına həsr edilmiş konfransdakı nitqində ənənəvi kənd təsərrüfatı məhsullarının artırılması məsələsini bir məqsəd, vəzifə olaraq qarşıya qoymuşdur: "Məmnuniyyətlə deyə bilərəm ki, zaqatalalılar təkcə həmin vəzifələrin icrasında deyil, ümumiyyətlə, cəmiyyət həyatının bütün sahələrindəki proseslərin uğurla başa çatdırılmasında dövlət başçımızın tövsiyə və tapşırıqlarını bayraq edirlər".

"O ki, qaldı sizin yada saldığınız iki kənd təsərrüfatı məhsuluna, deyə bilərəm ki, o barədə danışmaq üçün kifayət qədər sözümüz var. Məsələn, rayonumuz üçün ənənəvi və ixrac potensialı yüksək olan sahələrdən biri də gülçülükdür. Bu sahəyə göstərilən diqqətin nəticəsidir ki, "AZ ROSE" MMC-də abadlıq-quruculuq işləri davam etdirilməklə, qaraj-anbar binasının tikintisi başa çatdırılıb, gül plantasiyasında 40 nəfər daimi, 200 nəfər isə mövsümi işlə təmin edilib".

Öyrəndik ki, təkcə son mövsümdə müəssisənin 125 hektar bar verən qızılgül plantasiyasından 280 tondan çox qızılgül, 36 hektar barverən lavanda plantasiyasından 65 tona qədər lavanda ləçəyi tədarük edilib, 71,5 kiloqram qızıl gül yağı və 1 ton 46 kiloqram lavanda yağı istehsal olunub. Amerika Birləşmiş Ştatları, Bolqarıstan və Litvaya 76 kiloqram qızılgül, 83 kiloqram isə lavanda yağı ixrac edilib. Bundan başqa, "AZ ROSE" MMC-də istehsal olunmuş 1,5 ton gül suyu, 1 ton nanə suyu və 740 kiloqram qurudulmuş lavanda çiçəyi daxili tələbatın ödənilməsi məqsədilə qida və tibb sənayesi müəssisələri tərəfindən istehlak olunub.

Söhbətin "şirin tərəfi"nə gəlincə isə, rayon rəhbəri qeyd etdi ki, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası olaraq arıçılığın inkişaf etdirilməsi, bal ixracının artırılması məqsədi ilə rayonda "EkoZaqatala" MMC tərəfindən "Boz Qafqaz", "Karpat" və "Karnika" cinslərindən olan arı ailələri yetişdirilərək artırılır və fermerlər yüksək məhsuldar, cavan arı ailələri ilə təmin edilirlər.

Bu sahəyə aid olan faktlarda göstərilir ki, rayondakı 1200-dən artıq arıçılıq təsərrüfatında 30 minədək arı ailəsinə xidmət olunur. Həmin təsərrüfatlarda son bir il ərzində təxminən 300 ton bal, 40 ton mum, 500 kiloqram çiçək tozu, 200 kiloqram vərəmum, 12-15 kiloqram arı südü, və başqa məhsullar istehsal olunub. Rayonun təbii iqlim şəraiti gələcəkdə arıçılıq məhsullarının istehsalının artırılmasına imkan verir.

Yeri gəlmişkən, ölkəmizdə arıçılıq sahəsinə dövlət qayğısının təzahürü olaraq "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli sərəncamının icrası məqsədi ilə saxladıqları hər arı ailəsinə görə 10 manat olmaqla sənədləri təqdim etmiş 1250 nəfər arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə 288 min 250 manat subsidiya verilib.

Mən rayonda geniş vüsət alan tikinti-quruculuq və abadlıq işləri barədə eşitmək istəsəm də, Mübariz müəllim arıçılıq barədə dediklərini baramaçılıqla bağlı fikirlərlə davam etdirdi: "Baramaçılığın inkişaf etdirilməsi, gələcəkdə yaş barama istehsalının və tədarükünün artırılması üçün məqsədyönlü tədbirlər davam etdirilir. Məsələn, ötən ilin payız mövsümündə cəmi 81 min 130 ədəd olmaqla, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 31 min 130 ədəd tut tinginin və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilmiş 50 min ədəd (Çin Xalq Respublikası) tut tinginin əkilməsi təmin edilib".

Kümçülər ötən il əvvəlki illə müqayisədə 10,4 faiz çox barama istehsal edərək "Şəki-İpək ASC"-yə 53 ton barama təhvil veriblər. Bununla əlaqədar rayon üzrə 275 nəfər barama istehsalçısına emal müəssisəsinə təhvil verdikləri 52 ton 297,50 kiloqram yaş baramaya görə hər kiloqramı üçün 5 manat hesabı ilə dövlət büdcəsinin vəsaiti hesabına 261 min 487 manat subsidiya verilib.

Gülçülərin, arıçıların və kümçülərin qazancları barədə danışdıq. Bəs, ümumiyyətlə, rayon sakinlərinin dolanışığının, gün-güzəranının vəziyyəti necədir? Sən demə, bu sualın cavabı üçün də konkret faktlar var imiş. Məsələn, öyrəndik ki, təkcə son bir ildə rayonda 351 milyon 312 min manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib ki, bu da keçən illə müqayisədə 5,9 faiz çoxdur. Məhsul istehsalı əvvəlki illə müqayisədə sənayedə 24,1 faiz, kənd təsərrüfatında 4,9 faiz, ticarətdə 2 faiz, rabitədə 5,3 faiz, nəqliyyatda 1,3 faiz, pərakəndə əmtəə dövriyyəsi 4,4 faiz, pullu xidmətlərin həcmi 2 faiz artıb. Əsas kapitala yönəldilən investisiyaların həcmi 25 milyon 575 min manat olub ki, bunun da 17 milyon 209 min manatını tikinti-- quruculuq işləri təşkil edib.

Aha, mənim gözlədiyim məqam yetişdi. Deyəsən, elə həmsöhbətim də mənim "tikinti-- quruculuq işləri" ifadəsini gözlədiyimi və eşitdiyimi hiss etdi: "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin, həmçinin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər və daxili imkanlar hesabına rayon icra hakimiyyəti tərəfindən aparılan abadlıq-quruculuq işləri sosial sahədə mövcud problemlərin həllini sürətləndirib. Zaqatala şəhərində, rayonun qəsəbə və kəndlərində abadlıq və quruculuq işləri geniş vüsət alıb. Şəhərin Şəhriyar küçəsində Fövqəladə Hallar Nazirliyinin xətti ilə inşa edilən çoxmənzilli yaşayış binası istifadəyə verilib, Nizami küçəsində çörək və qənnadı məhsullarının istehsalı müəssisəsi, Amerika Birləşmiş Ştatlarının Şərq-Qərb İdarəçilik İnstitutu (SEDA) qeyri-hökumət təşkilatı ilə birgə həyata keçirilən layihə əsasında Zaqatala şəhərinin şimal-qərb yaşayış massivində və Əliabad qəsəbəsində yem emalı məntəqələri, Aşağı Tala kəndində və Muxax bələdiyyəsi ərazisində ət kəsimi məntəqələri tikilib, şəhərdəki Azərbaycan prospekti 97a saylı ünvanda beşmərtəbəli çoxmənzilli yaşayış binasının, "Aqrarco" MMC tərəfindən Aşağı Tala kəndi ərazisində yeni fındıq emalı zavodunun tikintisinə başlanılıb. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası kimi Zaqatala şəhərinin şimal-qərb yaşayış massivində Xalça evinin tikintisi ilə əlaqədar müvafiq torpaq sahəsi seçilərək, yerquruluşu kadastr planı hazırlanıb, hazırda layihələndirmə işləri davam etdirilir. Eyni zamanda, Zaqatala bələdiyyəsinin mülkiyyətindən ayrılmış 1,38 hektar torpaq sahəsində yaş baramanın qurudulması üçün anbar binalarının tikintisinə başlanılıb".



Amma bu faktlar rayonda aparılan tikinti-quraşdırma işlərinin hamısı deyil. Belə ki, fərdi yaşayış binalarının tikilməsində də nəzərəçarpacaq artım vardır. Məsələn, ümumi sahəsi 12 min 445 kvadratmetrdən çox olan 101 ədəd fərdi yaşayış evi tikilərək istifadəyə verilib, sahibkarlar tərəfindən 12,5 milyon manat həcmində yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksək mərtəbəli yaşayış binalarının tikintisi aparılıb.




Yaxud, 2012-ci ilin may ayında baş vermiş zəlzələ nəticəsində rayonun Əliabad qəsəbəsində, Zəyəm, Aşağı Tala, Çobankol, Yuxarı Çardaxlar, Danaçı, Dardoqqaz, Üçüncü Tala, Göyəm, Uzunqazmalar, Cimcimax, Kəpənəkçi, Bazar və Faldarlı kəndlərində qəzalı vəziyyətdə olan 33 fərdi yaşayış evi yenidən tikilərək sakinlərin istifadəsinə verilib. Zaqatala şəhərindəki 11 və 13 saylı, habelə Fındıqlı kəndindəki uşaq bağçalarında, Muxax kənd mədəniyyət və Dağlı kənd folklor evlərində təmir işləri aparılıb.



Təbii ki, Zaqatala ölkəmizin əsas turizm rayonlarından biridir. Ona görə də, tikinti-quruculuq işləri ilə yanaşı, yol infrastrukturunun yeniləşdirilməsi də qarşıda duran vəzifələrdən biridir. Bu sahədəki göstəricilər barədə isə rayon rəhbərindən deyil, zaqatalalı həmkarımdan eşitdim. Belə ki, rayon mərkəzində gördüyümüz müasir yol infrastrukturu barədə öz müsbət fikirlərimi səsləndirdim. Həmkarım əlavə etdi ki, bu gün Zaqatalanın bütün kənd və qəsəbələrinə gedən yollar məhz bu şəkildə yenidən qurulub.

Əslində həmkarımın dediklərinə də ehtiyac yox idi. Məgər 37 kilometr uzunluğunda olan Əliabad–Muğanlı–Faldarlı–Qandax–Yengiya–Əliabad; 42 kilometrlik Zaqatala –Aşağı Tala --Üçüncü Tala –Dağlı--Muğanlı və 13,5 kilometr uzunluğundakı Muxax–Zəyəm–Yuxarı Çardaxlar–Qarqay avtomobil yollarının yenidən qurulması başa çatdırılandan sonra az yazmışam?

...Təpənin "gündöyən" yamacındakı xırda göy çiçəklər ürkək-ürkək boylanır, kolların dibindən oğrun-oğrun baxan bənövşələr baharın gəldiyini müjdələyirdi. Amma bu çiçəklərin üstündə uçuşan arılar az deyildi. Hava o qədər isti olmasa da, açılan çiçəklərin və bal toplamağa çıxan arıların özü də elə bu yazı üçün "gül kimi" sonluq idi.

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin*
*bölgə müxbiri*

